9 May – faşizm üzərində Qələbə Günü!

●17 (1272) 5-10 may 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## PREZİDENT İLHAM ƏLİYEV LAÇIN, QUBADLI VƏ ZƏNGİLANA SƏFƏR EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Laçın və Qubadlı rayonlarına səfər edib.
Dövlətimizin başçısı Laçın rayonunda Güləbird kənd yaşayış məntəqəsinin, Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin, inzibati binanın, 600 şagird yerlik tam orta məktəbin, 91 çarpayılıq Mərkəzi Xəstəxananın, Xanlıq, Mahruzlu və Zilanlı kəndlərinin təməllərini qoyub.
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Zəngilan rayonuna səfər edib.
Dövlətimizin başçısı Zəngilan şəhərində Konqres Mərkəzinin tikintisi ilə tanış olub, inzibati binanın təməlini qoyub, "Azərenerji" ASC-nin "Sarıqışlaq" Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olub, otel kompleksinin, 91 çarpayılıq Zəngilan Rayon Mərkəzi Xəstəxanasının və Cahangirbəyli kəndinin təməlini qoyub.

## "28 İL ƏRZİNDƏ MİNSK QRUPU HEÇ BİR NƏTİCƏ VERMƏDİ"

"Yeri gəlmişkən, nəticə nöqteyi-nəzərdən 28 il ərzində Minsk qrupu heç bir nəticə verməmişdir. Bunun əsas səbəbi isə o idi ki, Ermənistan torpaqları geri qaytarmaq istəmirdi".
Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Şuşada keçirilən "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda konfransda ABŞ-ın Prinston Universitetindən olan Maykl Reynoldsun sualına cavabında bildirib. İşğal dövründə Minsk qrupunun Azərbaycanda çox populyar olmadığını deyən dövlətimizin başçısı qeyd edib:
**"İndi isə o artıq fəaliyyətini dayandırdığı üçün biz yaqin ki, bu məsələni dərindən müzakirə etməməliyik. Münaqişənin sülh yolu ilə həllini tapa bilməməsinin əsas səbəbi o idi, Ermənistan bunu istəmirdi".**

## "İRAN AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜ HƏR ZAMAN DƏSTƏKLƏYİB"

"İşğal vaxtı Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsinə gəldikdə, İrandan daha çox gözləntilərimiz var idi".
Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Şuşada keçirilən "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda konfransda çıxışında bildirib. Dövlətimizin başçısı deyib ki, İran Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəkləyib, BMT-də və İslam Əməkdaşlığı Təşkilatı daxilində ölkəmizin ərazi bütövlüyünün lehinə səs verib.

## "BİZ İRAN İLƏ ERMƏNİSTAN ARASINDA OLAN MÜNASİBƏTLƏRDƏN O QƏDƏR DƏ RAZI DEYİLİK"

"Azərbaycanda yaşayan insanlar kimi biz İran ilə Ermənistan arasında olan münasibətlərdən o qədər də razı deyilik. Siyasətçi olaraq anlayırıq ki, hər ölkənin xarici siyasətində prioritetlər var. İran və Ermənistan qonşudurlar".
Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Şuşada keçirilən "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda konfransda çıxışında səsləndirib. Dövlətimizin başçısı deyib: **"Azərbaycanda bir çox insanlar gözləyirdilər ki, işğal vaxtında Türkiyənin, Səudiyyə Ərəbistanının, Pakistanın göstərdiyi kimi eyni münasibət olsun. Əslində, həmin ölkələr işğal səbəbindən Ermənistanla heç diplomatik münasibətlər qurmayıblar. İnsanlar hesab edirdilər ki, İranın da həmin üç ölkə sırasında olması, həmrəyliyi nümayiş etdirməsi daha təbii olardı".**

## "AZƏRBAYCAN VƏ PAKİSTAN ƏSL DOST VƏ QARDAŞ ÖLKƏLƏRDİR"

Bunu Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Şuşada keçirilən "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda konfransda çıxışında deyib. **"Biz Pakistan xalqına, indiki və keçmiş hökumətlərinə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi ilə bağlı hər zaman göstərilən dəstəyə görə minnətdarıq"**, - söyləyən dövlətimizin başçısı deyib ki, istər işğal dövründə, istərsə də müharibə zamanı və ondan sonrakı dövrdə Pakistanın Prezidenti, Baş naziri və digər yüksəkrütbəli məmurları Azərbaycanı dəstəkləmişlər.

## "HEYDƏR ƏLİYEVİN ƏN BÖYÜK ARZUSU ŞUŞANI AZAD GÖRMƏK İDİ, BİZ ONUN BU ARZUSUNU REALLAŞDIRDIQ"

"Biz bununla fəxr edirik, xoşbəxtik. Bütün azərbaycanlılar – təkcə Azərbaycan vətəndaşları deyil, bütün dünya azərbaycanlıları bizim Qələbəmizlə fəxr edirlər".
Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında deyib. Dövlətimizin başçısı bildirib ki, bu Qələbə ədalətin, tarixi ədalətin və beynəlxalq hüququn Zəfəridir.
Dövlətimizin başçısı deyib ki, Heydər Əliyev həmişə Azərbaycan xalqının maraqlarını qoruyan bir şəxs olub və bunu zamana, siyasi vəziyyətə baxmayaraq edib.
Sovet Azərbaycanı dönəmində hətta ideoloji əngəllər çərçivəsində Ulu Öndər Azərbaycan xalqının maraqlarını qoruyurdu, milli kimliyimizi saxlaya bilməyimiz üçün əlindən gələni etməyə çalışırdı. 70-ci illərdə və 80-ci illərin əvvəlində Heydər Əliyev tərəfindən atılmış bir çox addımlar Azərbaycanın müstəqilliyinə hədəflənmişdi.
Prezident İlham Əliyev vurğulayıb ki, Ulu Öndərin xatirəsinə həsr olunmuş tədbirlər il ərzində davam edəcək.

## "ƏGƏR ERMƏNİSTAN SÜLH İSTƏMİRSƏ, SÜLH OLMAYACAQ"

"Əgər Ermənistan sülh istəmirsə, sülh olmayacaq. Tarixdən bilirik ki, sülh sazişini imzalamayan ölkələr də var. Bu, nə Ermənistan, nə də region üçün yaxşı olmayacaq. Əlbəttə ki, Azərbaycan üçün də yaxşı olmayacaq. Buna görə də biz hələ də ümid edirik ki, onlar məntiqli davranacaqlar, sabiq Minsk qrupu fəaliyyətdə olanda işğal zamanı istifadə etdikləri taktikadan istifadə etməyəcəklər". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında bildirib.

## "ŞUŞA BƏYANNAMƏSİNİN İMZALANMASI TARİXİ HADİSƏ İDİ"

"Türkiyə və Azərbaycanı rəsmi olaraq müttəfiq edən Şuşa Bəyannaməsi burada, Şuşada imzalanmışdır. Bu, tarixi hadisə idi".
Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında deyib.
**"Buna baxmayaraq, Azərbaycanla Türkiyə arasında münasibətlər de-fakto müttəfiq münasibətləri idi və biz bunu xüsusi olaraq son iyirmi ildə nümayiş etdirmişdik"**, - deyə dövlətimizin başçısı vurğulayıb.

## "QARŞIMIZDA QARABAĞIN VƏ ŞƏRQİ ZƏNGƏZURUN YENİDƏN QURULMASI KİMİ BÖYÜK ÇAĞIRIŞ DAYANIR"

"Qarşımızda Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması kimi böyük çağırış və məsələ dayanır.
Bizim heç bir ölkə, xüsusən də qonşu ölkə ilə hər hansı problemin olmasına ehtiyacımız yoxdur".
Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Şuşada keçirilən "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda konfransda çıxışında danışıb. **"Lakin hər şey Laçın ilə Xankəndi arasında kameraları quraşdırdıqdan sonra baş verdi. Biz İran yük maşınlarının dövri olaraq Qarabağa hərəkət etdiyini ifşa etdik. Bu, tamamilə qanunsuz idi, çünki İran Azərbaycanın ərazi bütövlüyünü tanıyır və bu cür işlərlə məşğul olmalı deyildi"**, - deyə dövlətimizin başçısı əlavə edib.

## "SƏFİRLİYİMİZƏ HÜCUM DİPLOMATLARIMIZI QƏTLƏ YETİRMƏK MƏQSƏDİLƏ QƏSDƏN TƏŞKİL OLUNMUŞ TERROR AKTI İDİ"

"Səfirliyimizə hücum diplomatlarımızı və onların ailə üzvlərini qətlə yetirmək məqsədilə qəsdən təşkil olunmuş terror aktı idi. Çünki həmin binada nəinki bizim səfirliyimiz, o cümlədən ailələrin yaşadığı mənzillər də yerləşir. Bir sıra ölkələrdə bizim təhlükəsizlik əməkdaşlarımız var, lakin yalnız İranda onlara silah gəzdirməyə icazə vermirlər".
Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında deyib.
Həmin şəxsin səfirliyə daxil olduğu zaman təhlükəsizlik əməkdaşlarımızın silahsız olduqlarını vurğulayan dövlətimizin başçısı bildirib: "Onun əlində "Kalaşnikov" avtomatı var idi. O, girən kimi atəş açdı, birini qətlə yetirdi, digərlərini yaraladı. Yalnız bir cəsur əməkdaş əliyalın olaraq, onu silahsızlaşdırdı və sıxıb çölə çıxara bildi. Sonra 40 dəqiqə ərzində nə polis, nə təhlükəsizlik əməkdaşı, heç kəs görsənmədi. O, yenidən soxulmağa cəhd etdi. "Kalaşnikov" avtomatından atəş açırdı, gətirdiyi çəkicdən istifadə edirdi. Daha sonra "Molotov kokteyli" də gətirmişdi. Qapını çəkiclə sındıraraq içəri daxil oldu və həmin yaralı əməkdaş yenidən onu sıxaraq çölə çıxara bildi. Sonra həmin şəxs polisə yaxınlaşır. Çöldə də kameramız var. O, istifadə etdiyi "Kalaşnikov" avtomatını və "Molotov kokteyli"ni verir. Bunun əvvəlcədən təşkil olunmadığı ilə bağlı şübhə qalırmı?".

# “QAZAXISTAN NEFTİNİN AZƏRBAYCANDAN NƏQL OLUNARAQ HƏCMİNİ ARTIRMAQ ÜÇÜN DANIŞIQLAR DAVAM EDİR”




“Qazaxıstan neftinin Azərbaycandan nəql edilərək həcmini artırmaq üçün planlar da var və danışıqlar indi davam edir. Bizim boru kəməri infrastrukturu buna imkan verir”.
Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında deyib.
Bakı-Tbilisi-Ceyhanla neft nəqlinin həcminin artırılması ilə əlaqədar problemin yekun məhsulun keyfiyyəti ilə bağlı ola biləcəyini vurğulayan dövlət başçısı bildirib: “Çünki Qazaxıstan nefti “AzeriLight” markasından fərqlidir və əgər Bakı-Tbilisi-Ceyhan vasitəsilə böyük neft həcmi nəql olunarsa biz keyfiyyətdə itirəcəyik. Çünki Bakı-Tbilisi-Ceyhanla ixrac etdiyimiz “AzeriLight” markalı neft hətta brend markalı neftdən də dəyərlidir. Lakin digər variantlar da var. Ceyhandakı yekun məhsulun keyfiyyəti dəyişərsə, biz əlbəttə ki, müəyyən kommersiya şərtləri üzərində çalışa bilərik. Yaxud Bakıdan Gürcüstanın Supsa dəniz limanına gedən boru kəmərimiz boş olarsa, biz bu boru kəmərindən istifadə edə bilərik, çünki Qara dənizdə böyük bazar var”.

# “ZƏNGƏZUR DƏHLİZİNİN, SADƏCƏ, AZƏRBAYCAN VƏ ERMƏNİSTAN ÜÇÜN DEYİL, QLOBAL SƏVİYYƏDƏ ƏHƏMİYYƏTİ VAR”

“Zəngəzur dəhlizinin böyük potensialı var. Çin, Qırğızıstan və Özbəkistan arasında dəmiryolu əlaqəsi yaradılır və Zəngəzur dəhlizi həmin marşrutun davamı, “Bir kəmər, bir yol” layihəsinin və ya Şimal-Cənub dəhlizinin tərkib hissəsi ola bilər”.
Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Şuşada keçirilən “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda konfransda çıxışında söyləyib.
Dövlətimizin başçısı qeyd edib ki, Zəngəzur dəhlizinin, sadəcə, Azərbaycan və Ermənistan üçün deyil, qlobal səviyyədə əhəmiyyəti var. Çünki biz daha böyük həcmdə yüklərin olmasını gözləyirik və marşrutlar nə qədər çox olsa, bir o qədər yaxşıdır.

# “TÜRKİYƏ İLƏ AZƏRBAYCAN ARASINDA MÜNASİBƏTLƏRİN QARDAŞLIQ XARAKTERİNİ HEÇ NƏ DƏYİŞMƏYƏCƏK”

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında söyləyib. Dövlətimizin başçısı deyib: “Əminəm ki, Azərbaycanla Türkiyə nəinki təkcə bu müttəfiqliyin formatını qoruyub saxlayacaq, hətta onu gücləndirəcəkdir. Çünki yeni geosiyasi reallıqda bu, artıq regional sabitliyin və təhlükəsizliyin mühüm amilinə çevrilib. İstər bu hərbi komponent, enerji, kommunikasiyalar, istərsə də ticarət və sair sahələr olsun”.

# “FÜZULİDƏN ERMƏNİSTANLA SƏRHƏDƏ QƏDƏR UZANAN DƏMİR YOLUNUN İNŞASINI GƏLƏN İL BİTİRƏCƏYİK”

“Biz işğal dövründə ermənilər tərəfindən söküлüb daha sonra satılan, Füzulidən Zəngilana və demək olar Ermənistanla sərhədə qədər uzanan dəmir yolunun inşasını gələn il bitirəcəyik”.
Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Şuşada keçirilən “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda konfransda çıxışında bildirib.
Dövlətimizin başçısı deyib ki, Ermənistan ərazisindən keçən 40 kilometrdən bir az artıq olan dəmir yolu xətti inşa edilsə, bu, beynəlxalq layihə olacaq.
Ermənistanın bu layihə qarşısında süni maneələr yaradacağı təqdirdə bundan yalnız uduzacağını vurğulayan Prezident İlham Əliyev qeyd edib: “Çünki bu gün bizim Gürcüstan, Türkiyə və Rusiya vasitəsilə Qara dəniz limanlarına çıxışımız var, digər tərəfdən İran ərazisindən də istifadə edilir. Ermənistanın isə belə fiziki bağlantıları yoxdur”.

# “AZƏRBAYCAN İLƏ ÇİN ARASINDA ƏLA MÜNASİBƏTLƏR VAR”

“Si Cinpinin məni Çinin yaxşı dostu adlandırması əməkdaşlığımızın səviyyəsini nümayiş etdirməyə kifayətdir”.
Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Şuşada keçirilən “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda konfransda çıxışında söyləyib. Səudiyyə Ərəbistanı ilə İran arasında münasibətlərin normallaşdırılması məsələsinə toxunan dövlətimizin başçısı qeyd edib: “Səudiyyə Ərəbistanı bizim üçün qardaş ölkədir və bu ölkə ilə gözəl münasibətlərimiz var. Onlar bizə görə Ermənistanla diplomatik münasibətlər qurmayıb və bunun böyük əhəmiyyəti var. İran isə bizim qonşumuzdur və biz orada sabitlik və proqnozlaşdırıla bilinən vəziyyətin olmasının istəyirik”.

# “BİZİM ƏLƏT AZAD TİCARƏT ZONASININ GƏLƏCƏK FƏALİYYƏTİ İLƏ BAĞLI BÖYÜK GÖZLƏNTİLƏRİMİZ VAR”

“Zonanın güclü qanunvericilik bazası var, qaydalar, fikrimcə, investorlar üçün cəlbedicidir. İlkin infrastruktur hazırda yaradılır. Biz bundan istifadə edərək, yeni istehsal sahələri və yeni biznes imkanları yaratmaq istəyirik”.
Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında deyib.
**“Azərbaycanda yaxşılaşan biznes mühitinin olması, vergi və gömrük sahələrində böyük islahatların aparılması və ümumilikdə, bizim bütün maliyyə sistemimizin şəffaflığı istiqamətində həyata keçirilən islahatlar hesab edirəm ki, böyük potensial yaradır. Bundan əlavə, coğrafi yerləşməmiz. Dediyim kimi, Azərbaycan təkcə Şərq-Qərb deyil, Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşir. Bütün nəqliyyat imkanlarımız var, infrastruktur tam müasirləşdirilib. Yəni, potensial böyükdür. Yenə də deyirəm, bu imkanlara daha geniş baxılmalıdır. Sadəcə tranzit ölkəsi olmaq kifayət deyil”**, - deyə Azərbaycan Prezidenti İlham Əliyev vurğulayıb.

# “ORTA DƏHLİZ LAYİHƏSİ TƏRƏFİMİZDƏN TAM DƏSTƏKLƏNİR VƏ ONUN NƏHƏNG POTENSİALI VAR”

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında deyib.
Bu imkandan istifadə edərək, marşrutboyu biznes fəaliyyətinin stimullaşdırılmasının vacibliyini vurğulayan dövlətimizin başçısı qeyd edib: “Orta Dəhlizin tərkib hissəsi olan ölkələr yalnız tranzitdən gəlirin əldə olunması ilə kifayətlənməməlidirlər. Bu fürsətdən yerli istehsalın stimullaşdırılmasında istifadə edilməlidir”.

# “TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATI QLOBAL GÜC MƏRKƏZLƏRİNDƏN BİRİ OLA BİLƏR VƏ OLMALIDIR”

“Azərbaycan Türk Dövlətləri Təşkilatının bütün fəaliyyəti dövründə fəal olub. Bəzi vaxtlarda müəyyən ölkələrin fəallığı dəyişib, lakin Azərbaycan hər zaman mühüm ölkə olaraq qalıb”.
Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Şuşada keçirilən “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda konfransda çıxışında bildirib.
Dövlətimizin başçısı qeyd edib: **“Biz təşkilatı daha vacib beynəlxalq oyunçuya çevirə bilsək, hər kəs bundan faydalanar. Bizim geniş coğrafiyamız, bəzi ölkələrdə böyük təbii sərvətlər, bəzi ölkələrin güclü hərbi imkanları var. Biz bütün bu səyləri birləşdirsək, qlobal səviyyədə ciddi oyunçu görə bilərik. Hesab edirəm ki, təşkilat qlobal güc mərkəzlərindən biri ola bilər və olmalıdır”.**

# AVROPA ÖLKƏLƏRİNƏ MÜMKÜN QƏDƏR ÇOX QAZ NƏQL ETMƏK ÜÇÜN BİR SIRA DİGƏR DİPLOMATİK ADDIMLAR ATIRIQ

Bunu Azərbaycan Prezidenti İlham Əliyev Şuşada keçirilən “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda konfransda çıxışı zamanı deyib.
**“Bizim Avropa Komissiyası ilə bir çox sahələri əhatə edən enerji dialoqumuz var - təkcə qaz deyil, buraya bərpaolunan enerji və yaşıl hidrogen daxildir. Yəni, portfel olduqca genişdir. Biz 2027-ci il üçün qaz təchizatımızı iki dəfə artıracağıq. Bu, təqribən 20 milyard kubmetrdir. Hesab edirəm ki, bu, tamamilə realdır”**, - deyə dövlətimizin başçısı vurğulayıb.

# “BİZ “ŞAHDƏNİZ” YATAĞINDAN ƏLAVƏ QAZ GÖZLƏYİRİK”

“Təqribən dörd ildən sonra, bəlkə də daha tez biz “Şahdəniz” yatağının yeni fazasından əlavə qaz hasil edəcəyik. “Abşeron” yatağından bir neçə ildir ki, qaz gözləyirik və ümid edirəm ki, bu il buna nail olacağıq”.
Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında deyib.
İlk mərhələdə “Abşeron” yatağından 1,5 milyard kubmetr qazın əldə olunacağını vurğulayan dövlətimizin başçısı daha sonra həmin qazın hansı bazara nəql ediləcəyinə dair qərar veriləcəyini vurğulayaraq bildirib: “Azəri-Çıraq-Günəşli” yatağının böyük potensialı var və BP ilə SOCAR artıq o layihədə fəal çalışır. Bu, nəhəng qaz-kondensat yatağıdır və onun minimum ehtiyatı 300 milyard kubmetrdir. Əlbəttə, “Ümid” və” Babək” yataqlarının böyük potensialı var. Orada SOCAR özü fəaliyyət göstərir, ancaq biz xarici tərəfdaşlarla işləməyə hazırıq. “Qarabağ” neft yatağımız var və orada da potensial var. Beləliklə, qazın mənbəyi bunlardır”.

# “QAZIN NƏQLİ ÜÇÜN İMKANLAR OLMALIDIR, TAP GENİŞLƏNDİRİLMƏLİDİR”

“Avropada interkonnektorlar vaxtında tikilsə, ilin sonunda Macarıstanı və Serbiyanı qazla təmin edə bilərik”. Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında deyib.
TAP-ın səhmlərinin 20 faizinin Azərbaycana məxsus olduğunu, bir şirkətdən başqa digərlərinin də payının 20 faiz təşkil etdiyini diqqətə çatdıran dövlətimizin başçısı vurğulayıb: “TAP-ın genişləndirilməsinə dair birgə qərar verilməlidir. TAP genişləndirilməsə, qaz olmayacaq. Bu gün TAP maksimum həddə çalışır. TANAP-ı genişləndirmək daha asandır, çünki o layihədə Azərbaycan, Türkiyə və BP var. TAP-da isə daha çətindir. Trans-Balkan boru kəmərinə çıxışımız olmalıdır ki, bizim qazı gözləyən ölkələri təchiz edə bilək. Avropada interkonnektorlar vaxtında tikilsə, biz bu ilin sonunda Macarıstanı və Serbiyanı qazla təmin edə bilərik”.

# Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında fəal dialoq mövcuddur

“Azərbaycan Mərkəzi Asiya ölkəsi deyil. Amma tarixi və mədəni əlaqələrlə, indi isə daha çox siyasi əlaqələrlə Mərkəzi Asiya ilə sıx bağlıdır”.
Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Şuşada keçirilən “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda konfransda çıxışı zamanı söyləyib.
Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında dialoqun fəal olduğunu bildirən dövlətimizin başçısı deyib ki, bu, çox müsbət dinamikadır. “...Zənnimcə, Mərkəzi Asiya və Azərbaycan gələcəkdə, ilk növbədə, sözsüz ki, nəqliyyat, təhlükəsizlik məsələləri baxımından daha çox inteqrasiyalaşmış ola bilər. Çünki Mərkəzi Asiya ölkələri üçün nəqliyyat, təhlükəsizlik məsələləri və ixrac bazarlarına çıxış bu gün bir müddət əvvəl olduğundan daha çox əhəmiyyət kəsb edir”, - deyə dövlətimizin başçısı vurğulayıb.

# “Heydər Əliyev və müasir türk dünyası” beynəlxalq elmi-praktiki konfransı türk dünyası ölkələrinin birliyinin bariz nümunəsidir





***Mayın 2-də Azərbaycan Ağsaqqallar Şurası, Azərbaycan Kooperasiya Universiteti və Azərbaycan İqtisadçılar İttifaqının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş “Heydər Əliyev və müasir türk dünyası” mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilmişdir.***

Tədbirdən əvvəl konfrans iştirakçıları Fəxri Xiyabana gedərək müasir, müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad etmiş, məzarı önünə gül dəstələri qoymuşlar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılaraq, məzarı üzərinə tər güllər düzülmüşdür.

Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Şimali Kipr Türk Respublikası, Pakistan və Gürcüstandan olan görkəmli alimlərin, ictimai-siyasi xadimlərin, eləcə də respublikamızın tanınmış alimlərinin, ziyalıların iştirakı ilə keçirilən beynəlxalq elmi konfransın plenar iclası Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlamışdır.

Sonra Ulu Öndər Heydər Əliyevin keçdiyi şərəfli ömür yolunu və Türk dünyasının müasir əlaqələrini özündə əks etdirən videoçarx nümayiş olunmuşdur.

Konfransın təşkilat komitəsinin və **Azərbaycan Ağsaqqallar Şurasının sədri, Azərbaycan Kooperasiya Universitetinin rektoru, Milli Məclisin Hesablayıcı komissiyasının sədri, iqtisad elmləri doktoru, professor Eldar Quliyev giriş nitqi ilə çıxış etmişdir.**

O, Ümummilli lider Heydər Əliyevin mənalı həyatı və ölkəmizin inkişafı yolunda yorulmaz fəaliyyətindən söz açmış, qeyd etmişdir ki, H.Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrlərdə Azərbaycanın Türkiyə Cümhuriyyəti və digər türkdilli dövlətlərlə sıx əlaqələri, dostluq və əməkdaşlıq münasibətləri formalaşıb, inkişaf edib, bu gün artıq yeni müstəvidə uğurla davam etməkdədir. Bu günlərdə böyük qürur və fəxarətlə qeyd etdiyimiz ulu öndərin 100 illik yubileyi münasibətilə təşkil olunan bu mötəbər tədbir möhkəm əsaslarla təməli qoyulmuş birliyin, qardaşlığın bariz nümunəsidir.

**Tədbirdə Elm və təhsil nazirinin müavini Firudin Qurbanov** çıxış edərək, tədbir işkirakçılarının diqqətini Ümmummilli Lider Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdığı müstəqilliyimizin ilk illərinə yönəldib. O, qeyd edib ki, dövlət müstəqilliyimizin bərpasının ilk illərində Azərbaycanın dövlət büdcəsi təxminən 1 milyard manat təşkil edirdi. Dahi rəhbərin yorulmaz fəaliyyəti, uzaqgörən siyasəti düzgün və vaxtında qəbul etdiyi qərarların gerçəkləşməsi nəticəsində bu gün müasir Azərbaycanın dövlət büdcəsinin gəlirləri 33 milyard manatı keçmişdir. Vaxtilə alınmış borcların, beynəlxalq kreditlərin ödənilməsində çətinliklərlə üzləşən Azərbaycan bu gün özü borc verən ölkəyə çevrilmişdir.

Konfransda “Heydər Əliyev ideyaları və türk dünyasının inkişaf strategiyası barədə” məruzə ilə çıxış edən **Azərbaycan İqtisadçılar İttifaqının sədri, Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə** bildirmişdir ki, Türkiyənin Mustafa Kamal Atatürkü və Azərbaycanın Heydər Əliyevi türk dünyasının XX əsrdə yetişdirdiyi nadir şəxsiyyətlərdir - ümummilli liderlərdir. Bu iki görkəmli şəxsiyyətin dövlət başçıları kimi çox dəyərli iqtisadi platformaları, baxışları olub ki, bunların da ana xəttini Türkiyə və Azərbaycanın iqtisadi cəhətdən güclü dövlətlər səviyyəsinə yüksəlmələri təşkil edir.

**Ziyad Səmədzadə:** *“Heydər Əliyev türk dünyasının daha sürətlə inkişafını arzulayırdı və Bakı-Tbilisi-Ceyhan neft-boru kəmərinin və digər neft-qaz marşrutlarının da bu baxımdan tarixi rolunu xüsusi vurğulayırdı. Onun Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan dövlət, hökumət rəhbərləri ilə səmimi dostluğu türk dünyası ölkələrinin birliyinə xidmət edirdi. Heydər Əliyev dəfələrlə qeyd edirdi ki, Azərbaycanın türk dünyası ölkələri ilə iqtisadi sahədə əməkdaşlığı daha da inkişaf etməlidir, investorlar hər iki ölkənin milli maraqlarına cavab verən layihələr həyata keçirməlidirlər. Bu, bir həqiqətdir ki, türk dünyası tarixin bir çox mərhələlərində bəşəriyyətin inkişafına güclü təkan vermiş, dünya siyasətinə, iqtisadiyyatına, mədəniyyətinə böyük təsir göstərmişdir. Bu gün altı müstəqil türkdilli dövlət - Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistan BMT-nin və digər nüfuzlu beynəlxalq təşkilatların üzvü kimi bəşəri problemlərin həllində fəal iştirak edirlər. Əlverişli geostrateji və coğrafi mövqeyə malik olan türk dövlətlərinin dünyəvi əhəmiyyət kəsb edən inteqrasiya prosesləri üçün çox böyük potensialı vardır. Türk dünyası ölkələri özlərinin tarixi köklərini dərk etdikcə yaxınlaşacaq, birləşəcək, daha da güclənəcək, bir-birinə arxa olacaqlar. İqtisadi əməkdaşlıqdan başlanan yaxınlıq dostluğa, tərəfdaşlığa və birliyə çevriləcəkdir.*

*Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Xəzərin statusunun qəbul edilməsi, Yeni Bakı Limanının, Bakı Gəmiqayırma zavodunun fəaliyyətə başlaması, Xəzər Dənizçilik Donanmasının yeni müasir gəmilərlə təminatının ildən-ilə yaxşılaşması, Ələt Xüsusi İqtisadi Zonasının yaradılması, nəqliyyat kompleksinin inkişafına xidmət edən digər tədbirlər bütünlükdə əlverişli coğrafi məkanda yerləşən Azərbaycanın, türk dünyasının mühüm nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilməsini təmin edəcəkdir. Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsi, Zəngəzur dəhlizinin açılması türk dünyasının inkişaf imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcək”.*

Tədbirdə çıxış edən Türk Dövlətləri Təşkilatının baş katibinin müavini Yerjan Mukaş, Özbəkistanın Qəhrəman Ali Məclisinin senatoru, respublika veteranlarının ictimai fəaliyyətinin dəstəklənməsi üzrə “Nuraniy” Fondunun İdarə Heyətinin sədri **Sodiqjon Turdiyev,** Türkiyənin görkəmli yazıçısı, publisist İmbat **Muğlu, Qazaxıstanın** Senatorlar Şurasının üzvü, TDT Ağsaqqallar Şurasının üzvü **İkram Adırbek,** Qırğız Respublikasının qəhrəmanı, parlamentin sabiq spikeri, TDT Ağsaqqallar Şurasının üzvü **Medetxan Şerimkulov,** Şimali Kipr Türk Respublikasının tanınmış ictimai-siyasi xadimi, görkəmli yazıçı, TDT Ağsaqqallar Şurasının üzvü **Tansel Fikri,** filologiya üzrə elmlər doktoru, professor **Adil Axmet** və digərləri görkəmli dövlət xadimi Heydər Əliyevin bütövlükdə türk dünyası üçün göstərdiyi tarixi xidmətlərdən danışmış, onu böyük qürur və iftixar hissilə yad etmişlər.

**Natiqlərin çıxışlarında Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın və türk dünyasının çoxəsrlik dövlətçilik tarixinin nadir simalarından biri olduğu, Ulu Öndər Heydər Əliyevin yaşadığı dövrün real mahiyyətini dərindən görərək, özünün aydın siyasi mövqeyi, möhkəm iradəsi və uzaqgörənliyi ilə zamanı irəli aparmaq qüdrətinə malik olduğu vurğulanmışdır.**



Tədbirdə Azərbaycanın müasir türk dünyası dövlətləri ilə əlaqələrinin qurulmasında, münasibətlərin dərinləşməsində, habelə ölkəmizdəki tolerantlıq mühiti və azərbaycançılıq ideologiyasının inkişafında Heydər Əliyevin əvəzsiz rolu xüsusi qeyd edilmiş, bu siyasətin bu gün Azərbaycan Respublikasının Prezidenti, ulu öndərin layiqli davamçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi xüsusi vurğulanmışdır. Plenar iclasdan sonra konfrans işini bölmələr üzrə davam etdirmişdir. **Sonda bölmə rəhbərlərinin hesabatları təşkilat komitəsi tərəfindən qəbul olunmuş, irəli sürülən təklif və tövsiyələr nəzərə alınmaqla məruzələr, məqalələr və tezislərin toplu şəklində çap edilməsi qərara alınmışdır.**

Bunununla da konfrans öz işini yekunlaşdırmışdır.




# Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr edilmiş "Rəqabət dayanıqlı inkişafın mühüm amili kimi" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib

***İqtisadiyyatda dayanıqlı inkişaf sosial-iqtisadi münasibətlərin ən mühüm müvəffəqiyyət meyarı kimi xarakterizə olunur. Bu isə ilk növbədə təsərrüfat subyektlərinin iqtisadi maraqlarının məcmusu, makroiqtisadi göstəricilərin dinamikası, iqtisadiyyatın idarə olunması ilə bağlı fəaliyyət göstərən institutların imkanları, iqtisadi əlaqələrin səmərəli xarakter daşıması və s. kimi amillərlə bilavasitə bağlıdır.***



*"Bazar iqtisadiyyatı rəqabətdir. Azərbaycanda ... sağlam rəqabət əhval-ruhiyyəsi yaranmalıdır."*

*Heydər Əliyev*
*Azərbaycan xalqının ümummilli lideri*

Artıq dünyanın əksər ölkələrinin dayanıqlı inkişaf proq-



ramları mövcuddur və bu sahədə işlər "Dayanıqlı İnkişaf Məqsədləri" istiqamətində davam etdirilməkdədir. İqtisadiyyatda məhsul istehsalı və xidmətlərin fasiləsiz artımı, istehsal potensialından səmərəli istifadə, ekstensiv inkişafdan intensiv inkişafa keçid, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqi, təsərrüfat fəaliyyətinin iqtisadi səmərəliliyinin dayanıqlı yüksəlişi, cəmiyyət üzvlərinin həyat şəraitinin yaxşılaşdırılması, iqtisadiyyatın sahələri və regional qeyri-tarazlı inkişafının aradan qaldırılması kimi prinsiplər "Dayanıqlı İqtisadi İnkişaf"ın məqsədləri hesab edilə bilər.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, "Dayanıqlı İnkişaf"ın təmin edilməsi üçün ölkənin əldə olunmuş inkişaf səviyyəsi, potensialı, institusional bazası ilə yanaşı, milli iqtisadiyyatın mövcud reallıqlarına uyğun, düzgün iqtisadi strategiyanın seçilməsi çox zəruridir. Belə ki, son yüzillikdə beynəlxalq səviyyədə rəqabət üstünlükləri əldə etmiş ölkələrin təcrübəsinin sistemli təhlili göstərir ki, onların uğurunu təmin edən əsas amil, hər şeydən əvvəl, düzgün iqtisadi inkişaf modelinin müəyyənləşdirilməsi və reallaşdırılması mexanizmlərinin seçilməsi olmuşdur.

Hazırda qloballaşan dünyaya fəal inteqrasiya olunan Azərbaycan milli iqtisadiyyatın rəqabət mübarizəsinə davam gətirmək üçün birincisi, iqtisadi inkişafın prioritetlərini düzgün müəyyənləşdirməli, ikincisi, onların həyata keçirilməsinin mövcud reallığa və imkanlara uyğun səmərəli üsul, vasitə və mexanizmlərini seçməlidir.

Ölkəmizdə milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyini müəyyənləşdirərkən mövcud potensial, iqtisadi artım tempi, sənaye istehsalının səmərəliliyi və səviyyəsi, elmi-texniki nailiyyətlərin istehsala tətbiqi, ölkənin Beynəlxalq Əmək Bölgüsündə iştirak dərəcəsi, daxili bazarın həcmi və dinamikliyi, maliyyə sisteminin elastikliyi və dövlət tənzimlənməsinin iqtisadiyyata müdaxiləsinin səmərəliliyinin dərəcəsi və s. nəzərə alınmalıdır.

Bazar iqtisadiyyatının inkişaf etdiyi müasir dövrdə, hökumət tərəfindən sosial-iqtisadi infrastrukturların inkişafına göstərilən diqqət və qayğı ölkəmizdə bazar konyukturasına cavab verəcək dayanıqlı inkişaf edən iqtisadi subyektlərin formalaşması üçün əlverişli şərait yaratmışdır. Belə bir şəraitdə milli iqtisadiyyatın müxtəlif sahələrində sürətli inkişaf dinamik xarakter almış, nəticədə ölkədə dayanıqlı inkişaf prosesləri başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının uğurla davam etdirdiyi sosial-iqtisadi siyasət nəticəsində son 20 ildə Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoymuş, iqtisadiyyatın davamlı inkişafı təmin edilmiş, ölkəmiz daha da qüdrətlənmiş, əhalinin sosial rifahı yüksəlmiş, Azərbaycan beynəlxalq əhəmiyyətli iri layihələrin təşəbbüskarına və əsas iştirakçısına, dünyada nüfuzu gündən-günə artan dövlətə və etibarlı tərəfdaşa çevrilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Azərbaycanın gələcək inkişafında rəqabət imkanlarının yüksəldilməsi perspektivlərini müəyyən etməklə yanaşı, növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritetin reallaşdırılmasını qarşıya məqsəd qoyur:

***1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;***
***2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;***
***3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;***
***4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;***
***5. təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.***

Qeyd edilən Milli Prioritetlər, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının **"Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"**dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir.

Hazırda ölkə iqtisadiyyatında əldə olunmuş makroiqtisadi sabitlik, dinamik iqtisadi artım, yoxsulluğun azaldılması və əhalinin sosial rifahının yüksəldilməsi sahəsində qazanılan uğurlar Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən sistemli və ardıcıl fəaliyyətin nəticəsidir.

İqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, makroiqtisadi sabitliyin qorunması, monetar və fiskal siyasətin koordinasiyasının gücləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması və özəl sektorun dəstəklənməsi, maliyyə xidmətləri bazarının inkişaf etdirilməsi, xarici ticarət və investisiya siyasətinin təkmilləşdirilməsi kimi istiqamətləri özündə cəmləşdirir.

Fikrimizcə, keçirilmiş konfrans da bu sahədə konkret bir addım kimi dəyərləndirilə bilər.

Dayanıqlı inkişafın təmin olunmasında sağlam rəqabətin rolu və əhəmiyyəti, haqsız rəqabət və dempinq hallarının aradan qaldırılması yolları, bu istiqamətdə preventiv tədbirlərin görülməsi vacib məsələlərdəndir.

Bu baxımdan, 2023-cü il 28 aprel tarixində Azərbaycan Respublikasının Auditorlar Palatası və İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr edilmiş **"Rəqabət – dayanıqlı inkişafın mühüm amili kimi"** mövzusunda keçirilmiş beynəlxalq elmi-praktik konfrans iqtisadi inkişafda rəqabət strategiyasının müəyyən edilməsinə, dayanıqlı inkişafın təmin olunmasına, rəqabət sayəsində tələb və təklifin tarazlaşmasına, məhsul və xidmətlərin qiymətlərinin optimallaşmasına, səmərəsiz fəaliyyət göstərən və normal bazar münasibətlərinin genişlənməsinə əngəllər törədən istehsal subyektlərinin iqtisadi arenadan çıxarılmasına, daha keyfiyyətli və əlçatan nəticələr əldə olunmasına və ən nəhayətində haqsız rəqabət və dempinq kimi neqativ halların aradan qaldırılmasına, bu sahədə mövcud olan problemlərin və qarşıda duran vəzifələrin müəyyənləşdirilməsinə öz töhfəsini vermiş, səmərəli əməkdaşlıq çərçivəsində mütərəqqi dünya təcrübəsinin öyrənilməsi və tətbiqi üçün geniş imkanlar yaratmışdır.

Bakıda təşkil edilən konfrans çərçivəsində rəqabətə davamlı milli iqtisadiyyatın yaradılması, bu sahədə korrupsiyaya qarşı mübarizənin əhəmiyyəti, rəqəmsal iqtisadiyyatda rəqabət siyasətinə rəqəmsal baxış, dost vergi sistemi inkişafın əsas amili kimi, peşəkar xidmətlər sahəsində rəqabətlilik, Azərbaycanda auditor xidməti bazarında rəqabət, istehlak bazarında rəqabət üstünlüyünün təmin edilməsi, müəssisələrin rəqabətqabiliyyətliliyinin və dayanıqlılığının rəqəmsal transformasiya texnologiyaları vasitəsi ilə yüksəldilməsi, ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin artırılması, Azərbaycanda maliyyə inklüzivliyi və iqtisadi artım məsələlərinə dair məruzələr dinlənilib, təcrübə mübadiləsi və geniş müzakirələr aparılıb.

Konfransda 6 ölkəni (Azərbaycan, Türkiyə, Rusiya, Belarus, Qazaxıstan və Özbəkistan) təmsil edən 100-ə yaxın nümayəndə iştirak etmişdir.

*Tədbirə xarici qonaqlarla bərabər, ölkəmizin dövlət və qeyri-hökumət təşkilatlarını, özəl sektoru, kütləvi-informasiya vasitələrini, ali təhsil və elmi-tədqiqat institutlarını təmsil edən nümayəndələr, habelə Auditorlar Palatasının əməkdaşları və üzvləri qatılmışdır. Konfransı Azərbaycan Respublikasının Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli, Auditorlar Palatasının sədri, professor Vahid Novruzov açaraq, onun əhəmiyyətindən danışıb və konfransın işinə uğurlar arzulayıblar.*

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili** hazırda bazarda özəl sektorla yanaşı, dövlət sektorunun da mühüm rol oynadığını bildirib.



T.Mirkişili əlavə edib ki, bu gün qarşıda duran əsas məsələlərdən biri özəl sektor üçün rəqabəti təmin etməkdir: ***"Son illərdə rəqabətin çox müzakirə edilməsi müsbət haldır. İqtisadiyyat Nazirliyinin gördüyü tədbirlər bu gün sahibkarlar arasında rəqabət aparmaq üçün elə də ciddi manenin olmamasına gətirib çıxarır".***

**Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli** konfrans iştirakçılarına qurumun fəaliyyət istiqamətləri, xüsusilə rəqabətin təmin edilməsi sahəsində görülən işlər barədə məlumat verib.



Bildirilib ki, milli iqtisadiyyatın rəqabətqabiliyyətinin artırılması və iqtisadiyyatın müxtəlif sahələrində səmərəli rəqabət mühitinin formalaşdırılması məqsədilə "Rəqabətin inkişafı və inhisarçılıq fəaliyyətinin qarşısının alınmasına dair 2023-2026-cı illər üçün Milli Fəaliyyət Proqramı"nın layihəsi hazırlanaraq aidiyyəti üzrə təqdim olunub. Dövlət Xidməti tərəfindən "Ticarət fəaliyyəti haqqında" yeni Qanun layihəsinin üzərində işlərin aparıldığı da vurğulanıb. Qeyd olunub ki, bu qanun ölkə ərazisində ticarət fəaliyyətinin təşkili və həyata keçirilməsinin hüquqi əsaslarını və bu sahədə sahibkarlıq subyektləri arasında yaranan münasibətləri tənzimləyəcək, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin bazara girişini asanlaşdıracaq, onların iri sahibkarlıq subyektləri qarşısında mənafelərini təmin edəcək.

**Auditorlar Palatasının sədri, professor Vahid Novruzov** bazar iqtisadiyyatı şəraitində rəqabətin inkişafının və səmərəliliyin əsas amillərindən biri olmasının inkar olunmaz fakt olduğunu bildirib.

V.Novruzov "rəqabət"i çox obrazlı şəkildə ifadə edən müstəqil Azərbaycanın memarı və dövlət quruculuğu konsepsiyasının müəllifi, ümummilli lider Heydər Əliyevin 2002-ci il aprel ayının 25-də Prezident sarayında yerli sahibkarlarla görüşündə "Bazar iqtisadiyyatı rəqabətdir", başqa bir çıxışında isə "Azərbaycanda sağlam rəqabət əhval-ruhiyyəsi yaranmalıdır" ifadələrini konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Onun sözlərinə görə, məhz rəqabət sayəsində tələb və təklifin tarazlaşmasına, məhsul və xidmətlərin qiymətlərinin optimallaşmasına, səmərəsiz fəaliyyət göstərən və normal bazar münasibətlərinin genişlənməsinə əngəllər törədən istehsal subyektlərinin iqtisadi arenadan çıxarılmasına, daha keyfiyyətli və əlçatan nəticələr əldə olunmasına imkan yaranır.

Təəssüf ki, haqlı rəqabətin boğulması, bu zaman təkcə peşəkar etik qaydaların pozulması yox, hətta bəzən cinayət yollarından istifadə halları iqtisadiyyatın bütün sahələrində, o cümlədən auditor xidməti sahəsində də qalmaqdadır. Biz bu gün belə pozuntulara qarşı mübarizə yollarını birgə müzakirə edib, tədbirlər müəyyənləşdirib, tətbiq yollarını araşdırmalıyıq. Əks halda haqsız rəqabət və dempinq kimi neqativ hallar iqtisadi inkişafı, o cümlədən, bazar münasibətlərini əngəlləməsi ilə bir sıra mənfi nəticələrin törədicisinə çevrilə bilər.

V.Novruzov, eyni zamanda Prezident İlham Əliyevin təsdiq etdiyi Dövlət proqramlarında, Milli Fəaliyyət və Milli Prioritetlərə həsr olunmuş sənədlərdə, çoxsaylı məruzə, çıxış və görüşlərində rəqabət mövzusunu daim diqqət mərkəzində saxladığını qeyd edib.

Daha sonra konfrans öz işini məruzələrin təqdimatı ilə davam etdirib.

**Milli Məclisin deputatı, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Ziyad Səmədzadə** "Rəqabətə davamlı milli iqtisadiyyatın yaradılması barədə" mövzusunda məruzə

# Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr edilmiş "Rəqabət dayanıqlı inkişafın mühüm amili kimi" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib

ilə çıxış edərək, Azərbaycanın dünyanın neft siyasətində, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan ölkələrdən biri olduğunu bildirib.



Z.Səmədzadə eyni zamanda Ulu Öndər Heydər Əliyevin düşünülmüş siyasəti, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi ilə bağlı gördüyü tədbirlər nəticəsində ərazisinin o qədər böyük olmamasına baxmayaraq, respublikamızın dünyanın mühüm nəqliyyat mərkəzlərindən birinə çevrildiyini vurğulayıb. **Onun sözlərinə görə, 20 ilə yaxındır ki, Auditorlar Palatası ilə birlikdə ölkədə sahibkarlığın inkişafı, yeni iqtisadi sistemin qurulması ilə əlaqədar olaraq xeyli iş görülüb.**

Z.Səmədzadə vurğulayıb ki, əgər bir ölkə özünün qlobal səviyyədə nəqliyyat təhlükəsizliyini təmin edə bilirsə, bu, onun ən böyük nailiyyətlərindən biri sayılır.

**İqtisadiyyat Nazirliyi yanında İctimai Şuranın sədri, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradov**



"Rəqəmsal iqtisadiyyatda rəqabət siyasətinə rəqəmsal baxış" mövzusunda məruzə ilə çıxış edərək, sahibkarlığın azad və sağlam rəqabət mühitinin formalaşmasında rolundan bəhs edərək, rəqabətin biznes sektorunun səmərəliliyi və iqtisadi artıma təsirləri barədə fikirlərini bölüşüb.

**"Dost vergi sistemi inkişafın əsas amili kimi" mövzusunda çıxış edən Türkiyə Sertifikatlı Mühasiblər Palataları Birliyinin (TÜRMOB) İdarə heyətinin üzvü, professor Cemal İbiş** rəqabət, davamlı inkişaf və rəqabət qabiliyyətinin təmin edilməsində "İnkişaf Dostu Vergi Sistemi"ndən bəhs edib.



Cemal İbiş "İnkişaf Dostu Vergi Sistemi"ndən bəhs edərkən iqtisadi artımı həyata keçirmək və insanların rifahını yaxşılaşdırmaq üçün lazımi maliyyə tədbirləri görən ölkənin inkişafı üçün əlverişli vergi sistemi müəyyən edilə biləcəyini vurğulayıb.

O, TÜRMOB tərəfindən 2020-2022-ci illər ərzində hazırlanan "İnkişaf Dostu Vergi Sistemi"nin tətbiq edildiyi halda tərəflərin rəqabət mühitində davamlı inkişafla bağlı məqsədlərinə nail olacağını və insanların rifah səviyyəsinin yüksələcəyini bildirib.

**Qazaxıstan Respublikası Auditorlar Palatasının icraçı direktoru Akan Arıstan** "Auditor fəaliyyəti üzrə Peşəkar Şura - konsepsiya, məqsədlər, onların reallaşması və yeni addımlar" mövzusunda çıxış edərək, Qazaxıstan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş haqsız rəqabətin növlərindən, auditor xidməti bazarında haqsız rəqabət, onun həlli yollarından və haqsız rəqabətə qarşı mübarizədə Qazaxıstan Respublikası Auditorlar Palatasının rolundan bəhs edib.

**Rusiya Federasiyasının "Sodrujestvo" Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyasının Baş direktoru Olqa Nosova** "Auditor xidmətlərinin göstərilməsi zamanı haqsız rəqabətlə mübarizədə Auditorların Peşəkar Birliklərinin fəaliyyəti haqqında (Rusiya Federasiyasının timsalında)" mövzusunda çıxış edərək, Rusiya Federasiyasında audit xidmətləri bazarında haqsız rəqabətin əlamətlərindən, haqsız rəqabətin mümkün nümunələrindən, auditor xidmətlərinin göstərilməsində haqsız rəqabət əlamətlərinin mövcudluğunu göstərən risklərin müəyyən edilməsi qaydalarından və metodlarından bəhs edib.

"Rəqabətlilik mühitinin təminində korrupsiyaya qarşı mübarizənin əhəmiyyəti" mövzusunda çıxış edən **Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Natiq Eyvazov** ötən il yeni inki-



şaf mərhələsinin doğurduğu zərurətdən irəli gələrək təsdiq edilmiş növbəti konseptual sənədlərin - "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın və "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" rəqabətə mənfi təsirlərin qarşısının alınması baxımından mühüm əhəmiyyətə malik olduğunu və həmin sənədlərin uzunmüddətli perspektivdə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığına böyük töhfə verəcəyini vurğulayıb.

**"Deloitte and Touche" MMC-nin Audit üzrə direktoru Elxan Əliyev** "Peşəkar xidmətlər sahəsində rəqabətlilik" mövzusunda çıxış edərək bildirib ki, problemlərin həlli və haqsız rəqabətin minimuma endirilməsində həm xidmətləri alan şirkətlər, həm xidmətləri göstərən şirkətlər, həm də dövlətin nəzarətedici orqanı məsuliyyət daşıyır. Xidməti alan şirkətlər öz daxili nəzarət sistemini gücləndirməli və alınan xidmətlərin keyfiyyətinə mümkün qədər nəzarət etməlidir. Xidmətləri təklif edən şirkətlər daima qanunvericiliyin və standartların tələblərini layiqincə yerinə yetirməli və keyfiyyətli iş təhvil verməyə çalışmalıdır. Dövlətin nəzarətedici orqanları tərəfindən isə hüquqi baza təkmilləşdirilməli və nəzarət mexanizmi gücləndirilməlidir.

**Auditorlar Palatasının Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Qoşqar Əhmədov** "Azərbaycanda auditor xidməti bazarında rəqabət" mövzusunda çıxış edərək, auditdə sağlam rəqabətin əsaslarından, haqsız rəqabətin audit peşəsinə təsirindən, haqsız rəqabətin qarşısının alınması üçün Auditorlar Palatası tərəfindən görülən tədbirlərdən, Auditorlar Palatası tərəfindən 2022-ci ilin **"Haqsız rəqabətə qarşı mübarizə ili"** elan edilməsindən, Haqsız Rəqabətə qarşı Mübarizə üzrə Komitənin yaradılmasından, **"Auditor xidməti sahəsində haqsız rəqabət və reklam qadağası haqqında Əsasnamə"**dən, **"Auditor fəaliyyəti sahəsində haqsız rəqabət hallarının qarşısının alınmasına dair Prosedur Qaydalar"**dan, Audit xidmətlərinin göstərilməsi üçün haqların müəyyən edilməsi prinsipləri haqqında Əsasnamədən, daxil olan sənədlərin dövriyyəsindən, **"Haqsız rəqabətlə mübarizədə Qütb Ulduzumuz"** kitabından, **"Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"** və onun tətbiqi zamanı intizamın pozulmasına görə intizam məsuliyyətindən, rəqəmsallaşmada ədalətli rəqabətdən bəhs edib.

Özbəkistanın Milli Mühasiblər və Auditorlar Assosiasiyasının sədri Münəvvər Tulaxocayeva **"Özbəkistanın auditor xidmətləri bazarında haqlı rəqabətin inkişafı üçün vektor"** mövzusunda çıxış edərək, Özbəkistanda audit xidmətləri bazarından, Özbəkistan Respublikasının "Rəbabət haqqında" Qanunundan, Özbəkistanda auditor xidmətləri bazarının inkişafının əsas mərhələlərindən, 2021-ci ildən yeni qüvvəyə minən Özbəkistan Respublikasının **"Auditor fəaliyyəti haqqında"** Qanununda haqsız rəqabətin qarşısının alınmasına dair müddəalardan bəhs edib.

**Azərbaycan Kooperasiya Universitetinin Tədris işləri üzrə prorektoru Fikrət Quliyev** "Marketinq istehlak bazarında rəqabət üstünlüyünün təmin edilməsi vasitəsi kimi" mövzusunda çıxış edərək, bildirib ki, şirkətlərdə marketinq strategiyalarının uğurla reallaşdırılması sahəsində sağlam rəqabət mühitinin olması da vacib məsələlərdəndir. Belə mühitin formalaşması üçün müvafiq qanunvericilik bazası iqtisadi inkişafın çağırışlarına uyğun olaraq davamlı şəkildə təkmilləşdirilməli və Rəqabət Məcəlləsi qəbul edilməlidir. Rəqabət Məcəlləsinin qəbul edilməsi Azərbaycanda rəqabət mühitində və antiinhisar siyasətində rəqabəti və azad sahibkarlığı təşviq etməklə, həm iqtisadiyyatın inkişafını, həm də istehlakçıların rifahını, məhsul və xidmətlərin keyfiyyətini təmin edəcək.



**"Belarus Respublikasında audit xidmətləri bazarında rəqabət: haqlı rəqabət peşənin inkişafına necə kömək edə bilər?"** mövzusunda çıxış edən **Belarus Respublikası Auditorlar Palatasının Beynəlxalq Standartların tətbiqi üzrə komitəsinin sədri Aleksandra Qridyuşko** Belarus Respublikasında auditor xidmətləri bazarının hazırkı vəziyyətini nəzərə alaraq, islahatların aparılmasının zərurətindən, onun rəqabətqabiliyyətli vəziyyətə gətirilməsi üçün əhəmiyyətli səylərə ehtiyac olduğundan bəhs edib.

Eyni zamanda, tədbir zamanı başqa ölkələrin nümayəndələri tərəfindən səsləndirilən qabaqcıl xarici təcrübələrin ölkədə tətbiqinin qarşıya qoyulan vəzifələrin icrasını xeyli sürətləndirəcəyini bildirib.

**AMEA İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri, professor Əlövsət Əliyev** "Müəssisələrin rəqabətqabiliyyətliliyinin və dayanıqlılığının rəqəmsal transformasiya texnologiyaları vasitəsi ilə yüksəldilməsi məsələləri" mövzusunda çıxış edərək, rəqəmsallaşmanın iqtisadiyyatın dayanıqlılıq və modernizasiya amili olmasından, rəqəmsal transformasiyalar şəraitində rəqabətqabiliyyətlilik və dayanıqlılıq problemlərindən, müəssisələrin fəaliyyət səmərəliliyinin yüksəldilməsində Sənaye 4.0 platformasının tətbiqi məsələlərindən, rəqəmsal innovasiyaların transferi şəraitində müəssisələrin dayanıqlı fəaliyyəti və rəqabətqabiliyyətliliyinin yüksəldilməsi istiqamətlərindən, rəqəmsal texnologiyaların və transformasiyaların rəqabətliliyə təsiri aspektlərindən danışıb.

**Azərbaycan İqtisadçılar İttifaqının sədr müavini, Beynəlxalq Menecment Akademiyasının müxbir üzvü, dosent Elşad Səmədzadə** "Haqsız rəqabətlə mübarizə iqtisadi inkişaf amili kimi" mövzusunda çıxış edərək rəqabət termininin müxtəlif dillərdə anlamından, mənşəyindən, cəmiyyətin iqtisadi məqsədlərinə rəqabətli şəkildə çatmağın yollarından, rəqabətlə bağlı müxtəlif aforizmlərdən və Azərbaycan Respublikasının qanunvericiliyində sahibkarlıq fəaliyyəti sahəsində rəqabətə dair müddəalardan, Azərbaycanda maliyyə bazarında rəqabət indekslərindən bəhs edib.



Azərbaycan Respublikası Mərkəzi Bankının Tədqiqatlar Departamentinin Makroiqtisadi tədqiqatlar şöbəsinin iqtisadçısı Zübeydə İmanova "Azərbaycanda maliyyə inklüzivliyi və iqtisadi artım" mövzusunda çıxış edərək, maliyyə inklüzivliyi və iqtisadi artım arasındakı əlaqədən, Maliyyə İnklüzivliyi İndeksindən danışaraq, Azərbaycanda həyata keçirilən maliyyə islahatlarının həm qısa, həm də uzunmüddətli perspektivdə iqtisadi artıma təsirindən bəhs edib. Konfransın yekununda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, müvafiq təkliflər verilmişdir.

***Konfransa bağlanış nitqi ilə yekun vuran Auditorlar Palatasının sədri, professor Vahid Novruzov tədbirdə səsləndirilən fikirlərin reallaşdırılmasının ölkə iqtisadiyyatının səmərəli təşkili və dayanıqlı inkişafına, haqsız rəqabət və demping hallarının aradan qaldırılmasına və bu istiqamətdə qabaqlayıcı tədbirlərin görülməsinə, habelə inhisarsızlaşdırma mühitinin təmin edilməsinə öz müsbət töhfəsini verəcəyini vurğulayıb.***

O, həmçinin konfrans gününün Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 100 illiyinə təsadüf etdiyini qeyd edərək, konfrans iştirakçılarına bildirib ki, Akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərləri həmişə təqdirlə qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür.

Konfrans çərçivəsində Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti arasında Əməkdaşlıq Sazişi imzalanıb. Sazişə əsasən tərəflər auditor xidmətlərinin dövlət satınalmaları zamanı rəqabət prinsiplərinin təşviqi və bu istiqamətdə sahibkarlıq subyektlərinin maarifləndirilməsi məqsədilə birgə tədbirlər həyata keçirəcək, metodiki təlimatlar hazırlayacaq və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq edəcəklər.

Tədbirin gedişi ölkəmizdə fəaliyyət göstərən KİV-də, o cümlədən televiziya kanallarında, saytlarda və digər mediada geniş işıqlandırılmışdır.

***Hal-hazırda konfransa təqdim edilən məqalələr, məruzə və tezislər Auditorlar Palatası tərəfindən təhlil olunur, yaxın günlərdə konfransın materialları dərc ediləcək və tövsiyələr hazırlanaraq müvafiq qurumlara təqdim ediləcəkdir.***

Əminik ki, "Rəqabət dayanıqlı inkişafın mühüm amili kimi" mövzusunda keçirilmiş beynəlxalq elmi-praktik konfrans və əldə edilmiş qabaqcıl beynəlxalq təcrübəyə dair materiallar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin proqram xarakterli göstəriş və tövsiyələrini rəhbər tutaraq, ölkədə rəqabətə davamlı və dayanıqlı milli iqtisadiyyatın yaradılmasında, azad sahibkarlığın inkişafında, auditor xidmətlərinin keyfiyyətinin artırılması və bu sahədə haqsız rəqabətin qarşısının alınmasında, habelə ölkə rəhbərliyi tərəfindən qarşıya qoyulan məsələlərin həllində mühüm rol oynayacaqdır.



**Fəqan Qarayev,**
**Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin müşaviri**

# BACARIQLI TƏŞKİLATÇI, QAYĞIKEŞ VƏ MEHRİBAN İNSAN

Azərbaycan Respublikasının Auditorlar Palatasının Şura üzvü, "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialının idarəedici partnyoru, əmək fəaliyyətinin iyirmi doqquz ili bütünlüklə auditor xidməti ilə bağlı olan, zəhmətlə yüksələn insan, tələbkar rəhbər, bacarıqlı təşkilatçı, qayğıkeş və mehriban insan İlqar Əflatun oğlu Vəliyevin 50 yaşı tamam olur.

O, 1973-cü il mayın 11-də Bakı şəhərində anadan olmuşdur.

1990-cı ildə orta məktəbini, 1993-cü ildə Beynəlxalq təşkilatın Beynəlxalq Biznes Məktəbi İnkişaf Assosiasiyasını fərqlənmə ilə bitirmişdir. 1995-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetini iqtisadiyyat üzrə magistr dərəcəsini alaraq fərqlənmə ilə bitirmişdir.

İlqar Vəliyev əmək fəaliyyətinə 1994-cü ildə "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialına iqtisadiyyat fakültəsinin məzunu kimi qoşulmuş və vəzifə dərəcələri üzrə sabit irəliləyərək, həmkarlarının və rəhbərliyin hörmətini qazanmış, 2007-ci ildə peşəkar xidmətlər və mühasibat uçotu istiqamətində fəaliyyət göstərən bütün iri beynəlxalq firmalar arasında partnyor vəzifəsinə təyin edilmiş ilk Azərbaycan vətəndaşı olmuşdur.

1996-1998-ci illərdə "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialında audit üzrə baş mütəxəssisi və 1998-2001-ci illərdə isə audit üzrə menecer vəzifələrində işləmişdir. 2001-2003-cü illərdə "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin London ofisinə ezamiyyə edilmişdir. 2003-2006-cı illərdə "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialında audit üzrə baş menecer vəzifəsində işləmiş, 2007-ci ildən isə "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialının idarəedici partnyoru vəzifəsində işləyir.

Şərəfli və məhsuldar əmək fəaliyyəti bütövlükdə ölkədə audit sisteminin təşəkkülü və inkişafı ilə birbaşa bağlı olmuş, 29 il ərzində bütün bilik və bacarığını auditor xidmətinin genişləndirilməsi işinə həsr etmişdir. Azərbaycan Respublikasının Auditorlar Palatasının keçirdiyi tədbirlərdə öz fəal mövqeyi ilə daim fərqlənmiş, həmkarları arasında yüksək nüfuz sahibi kimi dərin hörmət qazanmışdır.

İlqar Vəliyev həmçinin, Dünya Bankı, Avropa İnkişaf Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən maliyyələşdirmiş şirkətlərin auditi üzrə mühüm iş təcrübəsinə malikdir. Eyni zamanda, "Ernst & Young" şirkətinin Gürcüstanda və Türkmənistanda ofislərinin açılması və inkişafında aktiv iştirak etmişdir.

İlqar Vəliyev 2010-cu ildən Azərbaycan Respublikası Auditorlar Palatasının Şura üzvü kimi fəaliyyət göstərir, bütün bilik və bacarığını işə vicdanlı və məsuliyyətli münasibətilə milli audit sisteminin inkişafı işinə sərf edərək, fəaliyyəti zamanı "Auditor xidməti haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunlarının, Peşəkar Mühasiblərin Etika Məcəlləsinin, Beynəlxalq Audit Standartlarının, peşə etikası və əxlaq normalarına dair digər normativ hüquqi aktların tələblərinə riayət edərək, apardığı auditlər zamanı peşə borcunu daim yüksək səviyyədə yerinə yetirməklə səmərəli fəaliyyət göstərir, Palatanın əməkdaşları və üzvləri arasında hörmət və nüfuzunu durmadan yüksəldir.

İdarəedici partnyoru olduğu dünya audit arenasında lider mövqeyə malik olan "Ernst & Yanq Holdinqs (Si-AyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialı 29 il bundan əvvəl Azərbaycanda da öz ofisini açaraq, respublikada və regionda peşəkar xidmətlər göstərən ilk beynəlxalq şirkət olmuşdur. Bu gün şirkət Azərbaycanda milli və beynəlxalq şirkətlərə, eləcə də dövlət müəssisələrinə beynəlxalq iqtisadi məsələlərlə bağlı müxtəlif peşəkar xidmətlər göstərir. Təsadüfi deyil ki, şirkət hər il Auditorlar Palatasına təqdim etdiyi hesabat göstəricisinə əsasən reytinq cədvəlində I yerə layiq görülür.



Azərbaycan Respublikasının Auditorlar Palatası ilə "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialı arasında çox sıx işgüzar münasibətlər mövcuddur. İlqar Vəliyev Auditorlar Palatası Şurasının üzvü kimi gündəliyə çıxarılan məsələlərin müzakirəsində fəal iştirakı ilə daim diqqət mərkəzində olmuşdur. Auditorlar Palatasının 01 yanvar 2010-cu ildən ölkəmizdə Beynəlxalq Audit Standartlarının tətbiqinə başlamasında "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialının böyük rolu olmuşdur. Eyni zamanda, şirkətin əməkdaşlarının Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasının (2021-2030-cu illər), "Auditor fəaliyyəti haqqında" Azərbaycan Respublikasının yeni qanun layihəsinin hazırlanmasında, eləcə də Auditorlar Palatasının ictimai həyatında (komitələrdə, iclaslarda, tədbirlərdə və s.) iştirakı danılmazdır. Xüsusən qeyd etməliyik ki, Auditorlar Palatasının keçirdiyi beynəlxalq tədbirlərə "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialı daim sponsorluq etməklə yanaşı, həmin tədbirlərdə İlqar Vəliyevin fəal iştirakı və orada yüksək səviyyəli çıxışları həmişə rəğbətlə qarşılanmışdır.

İlqar Vəliyevin ötən dövr ərzində audit qanunvericiliyinin təkmilləşdirilməsi, normativ aktların, metodik vəsaitlərin, proqramların və digər sənədlərin hazırlanması və tətbiqində əməyini yüksək qiymətləndirilərək, dəfələrlə təşəkkür elan edilmiş, Fəxri Fərmanlara və 2013-cü ildə Auditorlar Palatasının "Fəxri auditor" adına layiq görülmüş, nəhayət Azərbaycan Respublikası Auditorlar Palatasının 20 illiyi münasibətilə auditor fəaliyyətinin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 04 aprel tarixli 1934 nömrəli Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Ömrünün 50 yaşını tamamlayan Azərbaycan auditorları ailəsinin sevimli üzvlərindən birini, hörmətli həmkarımızı, nümunəvi ailə başçısı, təcrübəli və bacarıqlı iş yoldaşı olan İlqar Vəliyevi yubileyi münasibətilə təbrik edir, ona uzun ömür, möhkəm cansağlığı, əmək fəaliyyətində yeni uğurlar, ictimaiyyət arasında malik olduğu hörmət və nüfuzu daim qoruyub saxlamağı arzulayırıq. Qoy ömrünün sonrakı hər bir günü ona və ailəsinə yalnız həyat sevincləri bəxş etsin.

*Dərin hörmətlə,*

**Ziyad SƏMƏDZADƏ**,
**Azərbaycan İqtisadçılar İttifaqının sədri,**
**Milli Məclisi deputatı, akademik**

**Vahid NOVRUZOV,**
**Azərbaycan Respublikasının Auditorlar Palatasının sədri,**
**iqtisad elmləri doktoru, professor**






5-10 may 2023-cü il

# Çernobıl faciəsinin şahidi...



***O vaxtlar metro inşaatı sahəsində işləyirdim. Bir gün gəlib dedilər ki, hazırlaş. Mənlə bərabər, bir neçə nəfərin də adını çəkdilər. Əvvəlcə düşündük ki, haradasa yeni metro açılır, oraya ezam olunuruq. Yenə də dəqiqləşdirmək üçün hara gedəcəyimizi soruşduq. "Deyiləcək", - deyib bizi daha da şübhəyə saldılar.***

***Bizi narahat edən əslində briqadirin adlarımızı çəkərkən başını qaldırıb üzümüzə baxmağa çəkinməsiydi. Özü də bizlə söhbətdən qaçırdı. Səbəbini isə sonradan bildik. Bizi Çernobıl AES-də baş vermiş qəza ilə əlaqədar yardım dəstəsinin tərkibində oraya göndərəcəkdilər.***

Düzü ilk eşidəndə çox narahat oldum. Çünki o vaxtlar ailəm, iki azyaşlı qızım vardı. Düşündüm ki, birdən mənə nəsə olsa, onlar necə olacaq? Briqadirdən xahiş etdim ki, məni ilk gedən dəstənin tərkibində göndərməsin, biraz daha ailəmlə vaxt keçirim. Əvvəlcə razılaşmadı, axşamçağı işdən çıxanda yaxınlaşıb, "hələ sən gözlə, iyulda yeni dəstə gedəcək, o vaxta hazırlaş", - dedi. Üç ay daha qızlarımla vaxt keçirə biləcəyim üçün çox sevinmişdim.

**İyul ayı idi.** 26 iyulda 30 yaşım olacaqdı. Briqadir məni çağırıb, "26 iyula, axşama hazır ol", - dedi, "yaxşı", - deyə cavab verdim. Evdə heçnə deməım. 26 iyulda bütün yaxınlarımı, dostlarımı toplayıb həm ad günümü qeyd etdim, həm də bir növ vidalaşdım. Çünki bilmək olmazdı. Faciənin nəticələrini eşitmək belə çox dəhşət idi, hələ bir də onu canlı görmək, bəlkə də heç qayıtmamaq... Ad günümü qeyd etdikdən sonra hər kəs çıxıb getdi. Qızlar da artıq yatmışdı. Həyat yoldaşımı çağırıb, gedəcəyimi dedim.

**"Bəlkə bir də danışasan, vaxtı uzatsınlar", - dedi. "Yox, söz danışıqdan keçər"**, - deyib, hazırlaşdım. Qızları oyatmadan başlarından öpüb getdim.

Faciənin dəhşətlərini Kiyevə daxil olduğumuz zaman artıq insanların gözündəki qorxu hissindən oxumaq olurdu. Pripyata doğru irəlilədikcə yanğınsöndürənlərin səsi, şəhəri bürümüş alovun tüstüsü, əzablar içində ağlayan insanlar, toz-duman... insanı dəhşətə gətirirdi. Xüsusilə, ağlayan, nə olduğunu hələ anlamayan, amma böyüklərin narahatlığını elə onlar qədər hiss edən körpələri, uşaqları gördükcə insanın ürəyi parçalanırdı. Artıq burada olduğumuza görə bizə nə olacağını düşünmürdük, insanlara necə yardım edəcəyimizi fikirləşirdik.

İlk vaxtlar məni sürücü təyin etdilər. Orada olduğum müddət ərzində qəzaya çox yaxından şahidlik etdim. Yaralı insanlar sağalmaq üçün deyil, ölmək üçün yardım istəyirdilər. Ağrının şiddəti bəzən insanları özlərinə qəsd etməyə belə məcbur edirdi. İnsanların bədənlərində deformasiyalar yaranmış, çox dərin, sağalmaz yaralar açılmışdı. Partlayışdan dörd ay keçməsinə baxmayaraq, təsirləri hələ də insanlarda ciddi nəticələrə səbəb olurdu. Bunun üçün sadəcə Pripyatın havasını bircə dəfə udmaq kifayət idi. Ona görə insanlar buradan evakuasiya edilirdi. 20 gün sürücü kimi işlədim. Məhv olmuş şəhərin əzablar içində qalan insanlarını görmək artıq adiləşmişdi. Amma faciənin təsirləri gün keçdikcə daha da artırdı. 20 gün sonra müayinə olunduğum zaman məlum oldu ki, çoxlu radiasiya dozu qəbul etmişəm. Ona görə məni işləmək üçün yanacaqdoldurma məntəqəsinə göndərdilər. Yardım üçün gedən bütün maşınları tez bir zamanda yanacaqla təmin etmək işinə rəhbərlik artıq mənim məsuliyyətimdə idi.

Biz orada üç aya yaxın qaldıq. Pripyatın havasını udduğum hər gün geriyə sağ dönəcəyimə ümidim daha da azalırdı. Təsirlərini orada olduğum zaman hiss etmirdim. Düşünürdüm ki, bəlkə də mənə təsir etmir. Və nəhayət oradakı ezamiyyə müddətimiz bitdi və biz möcüzə əsəri kimi sağ şəkildə geri qayıtdıq. Amma salamat qayıda bilmədik...

Geri döndükdən bir müddət sonra saçlarım töküldü, qollarımda, bədənimdə şiddətli ağrılar başladı, ürəyim zəiflədi və ciddi ağrılar meydana gəldi. **Hazırda II qrup Çernobıl əliliyəm. Lakin bütün bunlarla belə ürəyim sakit idi. Yardım edə bildiyimiz hər insan üçün sevinirdim, əsas odur ki, qızlarımın yanına sağ qayıtmışdım.** Hətta 4 il sonra bir qızım daha oldu. Bəlkə də bu, Allahın mənə mükafatı idi. Gedərkən qızlarımı çox düşünmüşdüm və mükafat olaraq rəbbim mənə bir qız övladı daha vermişdi.

***Bu gün Çernobıl haqqında söhbətlərimə qızlarım, nəvələrim də maraqla qulaq asır, sağ gəldiyimə çox sevinirlər. Mənim üçün isə sevindirici məqamlardan biri hər zaman Ulu Öndər Heydər Əliyevin, daha sonra isə cənab Prezident İlham Əliyevin diqqət və qayğısını hiss etməyimizlə bağlıdır. Yaxşı yadımdadır, 2020-ci ilin dekabr ayının son günləri idi.*** COVİD-19 pandemiyası yayılan zaman mən də bu amansız xəstəliyə tutuldum və çox ağır keçirirdim. Lakin birdən mənə zəng gəldi, "Salam, Məhərrəm Hüseynovla görüşürük?", "bəli", deyə cavab verdim. "Avtomobilinizi nə vaxt gəlib götürə bilərsiniz?". Bu sözlər sanki mənə ikinci həyat verdi. Həqiqətən də sağalmaq üçün sevinmək lazım imiş və doğrudan da bu sevinc məni sağaltdı deyə bilərəm. Bir neçə gün sonra gedib avtomobilimi götürdüm.

1986-cı ilin 26 aprelində Ukraynada Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş dəhşətli qəzanın nəticələrinin aradan qaldırılması ilə əlaqədar əlilliyi olan vətəndaşların sosial müdafiəsi daim diqqətdə saxlanır və Prezident İlham Əliyevin tapşırığına əsasən bu istiqamətdə tədbirlər ildən-ilə gücləndirilir, Çernobıl AES-də əlilliyi olan vətəndaşların mənzillə və avtomobillə təminatı həyata keçirilir.

Bu diqqət və qayğıdan ötrü cənab Prezidentimiz İlham Əliyevə dərin təşəkkürümü bildirirəm.

**Çernobıl iştirakçısı, II qrup Çernobıl əlili**
**Məhərrəm Hüseynov**

**Hazırladı:**
**Mətanət Hüseynova**

# "Prezident İlham Əliyev Avropadakı bir çox liderlər üçün nümunədir"



"Bugünkü beynəlxalq konfransda iştirak etməkdən məmnunluq duyuram. Prezident İlham Əliyevin çoxsaylı suallara qeydsiz, hazırlıqsız cavabları tədbir iştirakçılarını heyran etdi".

Bu sözləri Brüssel Enerji Klubunun nümayəndəsi Marat Terterov deyib.

O qeyd edib: "Bugünkü tədbir Azərbaycan Prezidentinin geosiyasət və strategiya üzrə ekspert kimi bacarıqlarını nümayiş etdirdi. Düşünürəm ki, sizin Prezidentiniz Avropadakı bir çox liderlər üçün həqiqətən də nümunədir və siz onunla fəxr edə bilərsiniz. Xəzər dənizinin sahilində olmaq və sadəcə, Bakıda yaşamaq həqiqətən də inanılmazdır. İlk dəfədir buraya səfər edirəm, amma şəhərin inkişaf səviyyəsi məni çox heyran etdi".

# Avrasiyanın gələcək geosiyasətindən danışmaq üçün ən gözəl məkan Azərbaycandır

"Avrasiyanın gələcək geosiyasətindən danışmaq üçün ən gözəl məkan məhz Azərbaycandır".

Bunu AZƏRTAC-a açıqlamasında ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə katibinin köməkçisinin keçmiş müavini David Merkel deyib.

O qeyd edib ki, Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinin qeyd olunması üçün yer baxımından da Şuşa şəhəri ən gözəl məkandır.

"Dərin strateji baxışa malik iki Prezidentinizin olması azərbaycanlıları çox şanslı edir.

Hər iki prezident bu gün Azərbaycanın firavan və təhlükəsiz olmasına imkan yaradıb.

Şuşanın işğaldan azad edilməsindən sonra biz indi daha geniş regional imkanlardan, Avrasiyanı bir araya gətirmək üçün Azərbaycanın tranzit imkanlarından danışırıq", - deyə o əlavə edib.



# "Biz Azərbaycanla əməkdaşlığın bütün sahələrdə inkişafının şahidi oluruq"



"Biz Azərbaycanla bütün sahələrdə, o cümlədən iqtisadiyyat, enerji, kənd təsərrüfatı, sosial inkişaf və digər sahələrdə əməkdaşlığın inkişaf etdiyinin şahidi oluruq".

Bunu Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Peter Mixalko jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, Avropa İttifaqı Azərbaycandakı islahatları dəstəkləyir və bundan sonra da dəstəkləməyə davam edəcək.

Avropa İttifaqının Azərbaycanın əsas ticarət tərəfdaşı olduğunu vurğulayan P.Mixalko deyib ki, ötən il Aİ ilə Azərbaycan arasında ticarət dövriyyəsi 2021-ci illə müqayisədə iki dəfə artıb.

# Bakı–Tbilisi–Ceyhan boru kəməri vasitəsilə 539 milyon tondan çox xam neft nəql edilib



Birinci rübdə BTC üzrə əməliyyat xərclərinə təxminən 34 milyon dollar, əsaslı xərclərə isə 10 milyon dollar vəsait xərclənib.

AZƏRTAC xəbər verir ki, bu barədə BP-nin 2023-cü ilin birinci rübünün yekun hesabatında qeyd olunub.

1768 kilometr uzunluğunda olan BTC boru kəməri 2006-cı ilin iyun ayında istismara verildən 2023-cü ilin birinci rübünün sonunadək kəmər vasitəsilə 539 milyon tondan çox (4 milyard barel) xam neft nəql edilib və Ceyhanda 5314 tankerə yüklənərək dünya bazarlarına göndərilib. BTC-nin ümumilikdə 4 milyard barel neft ixracına nail olması əlamətdar bir uğur kimi cari il yanvarın 18-də qeyd edilib.

Bu ilin birinci rübü ərzində BTC vasitəsilə ixrac olunmuş təqribən 7 milyon ton (təxminən 53 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 70 tankerə yüklənib və yola salınıb.

Hazırda BTC boru kəməri əsasən Azərbaycandan AÇG nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, BTC vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan və Türkmənistan) də nəql olunur.

# "Azərbaycan regionda sabitliyin möhkəmləndirilməsi üçün mühüm ölkəyə çevrilib"

"Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda konfrans böyük əhəmiyyət daşıyır. Azərbaycan bu regionda sabitliyinin möhkəmləndirilməsi üçün çox mühüm ölkəyə çevrilib".

Bunu AZƏRTAC-a müsahibəsində jurnalist Jan Mişel Brun söyləyib.

Şuşaya səfərindən məmnunluğunu ifadə edən jurnalist deyib: "Bu, mənim Şuşaya beşinci səfərimdir. Mən Şuşa haqqında kitab yazmışam və bu kitab öz ərazi bütövlüyünü bərpa etmiş Azərbaycan xalqının yenidən dirçəlişini təcəssüm etdirir. Beləliklə, bugünkü konfrans çox əhəmiyyətlidir. Burada olan jurnalist və ya mütəxəssislərin bütün suallarına çox aydın şəkildə cavab verməyə həmişə açıq olan Azərbaycan prezidentinə suallar verməkdən şadıq".



## Qarabağın görkəmli simaları

# Süleyman Rəhimov (1900-1983)



***Azərbaycan-sovet yazıçısı, nasiri, siyasətçisi, 1938-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan SSR xalq yazıçısı (1960), Sosialist Əməyi Qəhrəmanı (1975) Süleyman Hüseyn oğlu Rəhimov 1900-cü ilin 22 martında Zəngəzur mahalının (hazırkı Qubadlı rayonu) Əyin kəndində anadan olmuşdur. İbtidai təhsilini ikisinifli rus məktəbində almışdır. İlk təhsilini kənddə almış, sonralar texnikum və ali məktəb bitirmişdir. 1921-ci ildə Xanlıq kəndində yeni açılmış məktəbdə müəllim işləməyə başlamışdır. Şuşada pedaqoji kursda oxuduqdan sonra uzun müddət Zəngəzur mahalının müxtəlif rayonlarında müəllimlik etmişdir.***

1928-ci ilin payızında dostu Əli Vəliyevlə Bakıya gələrək, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsil almış, eyni zamanda Qaraşəhərdə ikinövbəli savad kursunda yaşlı fəhlələrə dərs demişdir. 1931-ci ildə təhsilini bitirmişdir.

Ədəbi fəaliyyətə 1930-cu ildən başlayan Süleyman Rəhimovun ilk əsəri "Şamo"dur. Bununla belə, o, 50 il bu əsərinin üzərində işləmiş və ona əlavələr etmişdir. Onun ən tanınmış əsərlərindən biri də "Qara torpaq və sarı qızıl"-dır. İndi bu əsər 5-ci sinif ədəbiyyatlarında istifadə olunur.

Süleyman Rəhimov 1939-1940, 1944-1946 və 1954-1958-ci illərdə Azərbaycan Yazıçılar Birliyinin sədri olmuşdur. Azərbaycanın Laçın, Samux, Şahbuz və Noraşen rayonlarında rəhbər partiya işlərində çalışmışdır (1934-1937). Azərbaycan K(b)P Bakı şəhər komitəsində təbliğat üzrə katib (1940–1941), Azərbaycan K(b)P MK-da təbliğat və təşviqat şöbəsinin müdir müavini (1941-1944), Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-Maarif işləri Komitəsinin sədri (1945-1958) vəzifələrində işləmişdir.

S.Rəhimov yeni dövr Azərbaycan ədəbiyyatında nəsrin inkişafı sahəsində misilsiz xidmətləri olan yazıçıdır. Əsasən romançı kimi tanınıb. 30-cu illərdə Azərbaycan romanının təşəkkülü və inkişafı onun adı ilə bağlıdır. **"Şamo" və "Saçlı"** kimi çoxcildli romanların, **"Aynalı", "Qardaş qəbri", "Su pərisi", "Uğundu"** və s. əsərlərin müəllifidir. S.Rəhimov **"Şamo"** romanı ilə ədəbiyyata gəlmiş və 50 ilə yaxın bu əsərin üzərində işləmişdir.

Azərbaycan nəsrində Süleyman Rəhimovun əsərlərinə bugünün prizmasından diqqət yetirəndə böyük yazıçıların da zamanın təzyiqindən kənara çıxa bilməməsi diqqət çəkir. Süleyman Rəhimov seçdiyi ədəbi qəhrəmanlara təkcə istedadının deyil, həm də dövrün prinsipləri əsasında yanaşmaq məcburiyyətində olub. Ermənilərə qan udduran, milli mənafe uğrunda savaşa qalxan, bu gün də haqqında nəinki təkcə Zəngəzurda, bütövlükdə Azərbaycanda danışılan qeyrətli vətən oğlunun - Sultan bəyin "Şamo"da mənfi obraza çevrilməsi dövrün tələbi idi. Sovet quruluşu yazıçıdan məhz əsl bəylərin üstündən qara xətt çəkib, guya xalq içindən çıxmış süni qəhrəman yaratmağı tələb edirdi. Buna görə də Sultan bəylər xalqa çox eybəcər şəkildə təqdim edilir, süni surətdə uydurulmuş obrazlar zirvəyə qaldırılırdı.

***Şamo adi çoban oğlundan məşhur inqilabçıya qədər bir ömür yolu keçir. Guya haqq-ədalət uğrunda mübarizəyə qoşulur. Cəngavər bir igidin inandığı yanlışlıq onun nakam ölümü, həlak olması ilə nəticələnir. Bəlkə də böyük sənətkarımızın uzaqgörənliyi idi ki, bütün çarpışmaların, inqilabların sonu uçurumdur, məğlubiyyətdir. Müsbət qəhrəmanlar - partizanlar, inqilabçılar müxtəlif vaxtlarda həlak olurlar. "Mənfi" surətlər, məsələn, elə Sultan bəy xaricə qaçır.***

Süleyman Rəhimov 1983-cü il oktyabrın 11-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

# XALQIN ÖNDƏRİ

Hər bir zaman dayaq oldun Vətəninə, elinə Sən,
Xilaskarı oldun xalqın, unudulmaz bir tarixsən,
Taleyüklü məqamlarda qətiyyətlə qərar verən
Əbədilik qazanmış və zəngin ibrət məktəbisən.

* * *

Müstəqillik möhkəmləndi sənin böyük zəhmətinlə,
Azərbaycan çiçək açdı, böyüdü məhz qüdrətinlə,
Dünya duydu səsimizi, eşitdilər adımızı
Xalqın oldu tam sahibi sərvətinin bir sazişlə.

* * *

Sən gücünlə, qüdrətinlə düşmənləri məğlub etdin,
Ümummilli lider oldun, şöhrətinlə diqqət çəkdin,
Mümkünsüzü mümkün edib, qovdun qara kölgələri
Unutmaz xalq heç bir zaman Heydər kimi bir öndəri.

* * *

Düşündün Sən hər bir zaman öz xalqını, millətini
Bizə miras qoyub getdin İlham kimi sərkərdəni
Layiqli bir davamçı tək əmanətə sahib çıxdı
Azad etdi 44 günə O, əzmlə vətənini.

* * *

Atasının vəsiyyətin gerçək etdi, çaldı zəfər
Qazanacaq Azərbaycan daha neçə qələbələr!!!

**Mətanət HÜSEYNOVA**

# Dr.Eldəniz Hüseynov: Ürək tomoqrafiyası bir çox ürək xəstəliklərinin müalicəsində bələdçidir



***Bu gün həyat tərzinin dəyişməsi və stress səbəbindən şəkərli diabet, böyrək xəstəlikləri, insult, yüksək təzyiq və ürək-damar xəstəlikləri olan insanların sayı durmadan artır. Ümumdünya Səhiyyə Təşkilatının son araşdırmaları göstərir ki, ürək-damar xəstəlikləri ölüm hallarının əsas səbəbidir.***

Ürəyin kompüter tomoqrafiyası (KT) orqanın toxumalarının vəziyyətini qiymətləndirməyə, ürək qüsurunun olub-olmadığını müəyyən etməyə imkan verir.

Ürək tomoqrafiyası müasir qeyri-invaziv yolla, yüksək dəqiqliklə həyata keçirilən diaqnostik prosedurdur. Ürəyin quruluşunu, həmçinin koronar damarların vəziyyətini qiymətləndirən bu metod haqqında suallarımızı Mərkəzi Gömrük Hospitalının Radiologiya şöbəsinin rəisi, uzman radioloq Dr.Eldəniz Hüseynova ünvanladıq. Müsahibəni diqqətinizə çatdırırıq.

***- Eldəniz həkim, ürək koronar KT angioqrafiya barədə nə deyə bilərsiz?***

- Ürək tomoqrafiyası/koronar KT angioqrafiya, xüsusən də koronar arteriyalar ilə əlaqəli olmaqla, ürəyin anatomik quruluşunun qiymətləndirilməsində və bir çox ürək xəstəliklərinin müalicəsində bələdçi olaraq istifadə edilən, kontrast maddə istifadə edilərək çəkilən tomoqrafik görüntüləmə üsuludur.

Bu metoddan kardiologiyada infarkt və digər həyati təhlükəli vəziyyətlərin erkən qarşısının alınması məqsədilə, gizli patologiyaların diaqnostikasında istifadə olunur.

***- Ürək tomoqrafiyası/koronar KT angioqrafiyanın tətbiq sahələri hansılardır və hansı xəstəliklərdə istifadə olunur?***

- Ürək tomoqrafiyası/koronar KT angioqrafiya koronar arteriya xəstəliyi, perikard xəstəlikləri, anadangəlmə (konjenital) ürək xəstəlikləri, ürək törəmələri, qapaq və protez qapaq xəstəlikləri kimi bir çox ürək xəstəliklərinin müalicəsi üçün yol göstəricisidir.

***- Ürək tomoqrafiyası/koronar KT angioqrafiyanın üstünlükləri hansılardır?***

**- Koronar KT angioqrafiyanın üstünlükləri aşağıdakılardır:**

*- görüntünün keyfiyyəti çox yüksəkdir;*

*- koronar arteriya xəstəliyində görüntü yüksək dəqiqlikdə verildiyi üçün ona daha çox üstünlük verilir. Mürəkkəb və sadə anadangəlmə ürək xəstəliklərində anatomiya və damar əlaqələri haqqında yüksək səviyyədə məlumat verir;*

*- çəkiliş üçün 5-7 dəqiqəyə qədər qısa vaxt tələb olunduğundan və MRT-də olduğu kimi səs-küy problemi olmadığı üçün xəstələrdə narahatlıq yaratmır;*

*- prosedur zamanı və sonra ağrı olmur;*

*- stent qoyulması və ya bypass əməliyyatı keçirmiş insanlarda və ya daha əvvəl koronar arteriya xəstəliyi olduğu bilinməyən xəstə qrupunda təhlükəsiz şəkildə tətbiq oluna bilər. Koronar anatomiya və stenoz səviyyələri haqqında ətraflı məlumat əldə etmək olar.*

***- Bəs ürək tomoqrafiyası/koronar KT angioqrafiyanın çatışmazlıqları barədə nə deyə bilərsiz?***

- Böyrək çatışmazlığı olan xəstələrdə kontrast maddə təhlükəli ola bilər. Mərkəzimizdə pasiyentlərimizin bədən səthinin sahəsinə, bədən quruluşuna və damarlarındakı kalsifikasiya dərəcəsinə görə minimum şüalanma almasını təmin edən üsullar tətbiq edilir. Kontrast maddənin miqdarı da xəstənin xüsusiyyətləri nəzərə alınmaqla minimum səviyyədə saxlanılır.

***- Hansı xəstələrə ürək tomoqrafiyası/koronar KT angioqrafiyası olmaz?***

- Prosedur zamanı kontrast maddə istifadə edildiyindən xroniki böyrək çatışmazlığı olan xəstələrdə mütləq xəstənin həkimi və nefrologiyası tərəfindən ilkin qiymətləndirilmə aparılaraq prosedura qərar verilməlidir. Kiçik diametrli stentləri olan xəstələrdə də koronar KT angioqrafiyası optimal nəticə verməyəcək. Bundan başqa, prosedur bütün xəstələrə tətbiq oluna bilər.

***- Ürək tomoqrafiyasında allergiya riski varmı?***

- Prosedur zamanı verilən kontrast maddəyə bağlı olaraq allergiya inkişaf edə bildiyi üçün xəstədən prosedur etməzdən əvvəl ətraflı allergiya tarixi alınır. Allergiya olması ehtimalı olan xəstələrdə qoruyucu dərmanlar verildikdən sonra prosedur həyata keçirilir və xəstə prosedurdan sonra daha uzun müddət müşahidə altında saxlanılır.

**- Ətraflı müsahibəyə görə təşəkkür edirik.**

**Müsahibəni apardı:
Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi
Dilara Zamanova**

# Bakcell "Formula 1"in sürət liderlərini təqdim edir!

Formula 1 yarışlarının sürət liderləri ilə yanaşı, Bakcell də Azərbaycanın Qran Prisinin sürət rəmzlərindən birinə çevrilib.

"Formula 1"-in son günündə gərgin mübarizənin şahidi olan azarkeşlər Bakcell stendində müxtəlif yarışlara qatılıblar. Vətən mühabəsininin qəhrəman veteranları "Bakcell" tribunasının xüsusi qonağı qismində dəvət olunub. Qazilərimiz, eyni zamanda Bakcell stendində şəbəkəni sınaqdan keçirib, müxtəlif oyunlarda iştirak ediblər. "Formula 1" üzrə Azərbaycan Qran Prisi ərzində sürətlə əyləncəni bir araya gətirən "Bakcell" stendi yarış boyu sürət həvəskarlarının böyük marağına səbəb olub.







**Azəri Light və Brent markalı neftin bir barelinin 26 aprel-3 may tarixlərində birja qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert Maqsud Quliyev**

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlıya atası
**BABA BABANLININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlıya atası
**BABA BABANLININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Arif Hüseynov Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlıya atası
**BABA BABANLININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlıya atası
**BABA BABANLININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**